# “Təfəkkür” Universitetində yay imtahanları başladı

Bu gün (6 iyun) Elm və Təhsil Mərkəzi “Təfəkkür” Universitetinin əyani şöbəsində yay imtahan sessiyası başladı.

İmtahanların başlamasından bir neçə gün əvvəl universitetdə geniş müşavirə keçirilmiş, universitetin rektoru, professor Rahim Hüseynov tələbələrin biliyinin düzgün qiymətləndirilməsi, imtahanlarda şəffaflığın, obyektivliyin təmin edilməsi üçün lazımı göstərişlər vermişdir. Tələbələrin biliklərinin obyektiv qiymətləndirilməsi üçün əvvəlki imtahan sessiyalarında olduğu kimi bu dəfə də universitetdə bütün imtahanların yazılı formada keçirilməsi və şifrələnməsi üçün rektorun xüsusi əmri olmuşdur.

Universitetdə prorektor İlham Musayevin sədrliyi ilə Apellyasiya komissiyası yaradılmışdır. İmtahanların gedişində ortaya çıxa biləcək problemləri araşdırıb tədbir görmək üçün “qaynar xətt” fəaliyyət göstərir. "Qaynar xəttə" daxil olan müraciətlər rektorun əmri ilə kafedralarda yaradılmış xüsusi komissiyalarda araşdırılıb tədbir görüləcəkdir. İmtahanların gedişindən, aldıqları qiymətlərdən narazı qalan tələbələrin müraciətinə rektor şəxsən özü nəzarət edir.

Birinci gün iqtisadiyyat və filologiya fakültələrinin on bir qrupunda imtahan keçirildi.

"Qaynar xəttə" və Appelyasiya komissiyasına müraciət edən olmamışdır.



